**UDC:** 297.; 297.18.
**LBC:** 86.39; 86.31
**MJ №** 244
10.33864/2617-751X.2024.v7.i4.152-166

# Social Injustice and Deception in Trade as Catalysts for Societal Collapse: A Case Study of the People of Shuaib

**Shargiya Salmanova***
**Aladdin Malikov****

**Abstract.** Human rights are inalienable rights given to all people from the day of their birth. Protection of human rights is a prerequisite for a just, equal and peaceful world. We can find these rights not only in official state documents, but also in the doctrines of religions. Human rights are the responsibility not only of the state, but also of individuals and non-governmental organizations. Violation of these rights has the potential to strain relations between people. When we look at the instructive stories given to us by religious texts, we witness that the violation of rights, the taking away of people's rights, provokes God's wrath and has the characteristic of being the cause of the consequences leading to the destruction of communities that behave in this way. The importance of heavenly religions to human rights, examples of justice and human rights contained in religious texts were included in the article, and an attempt was made to draw attention to the importance of the value of this step in the eyes of God on the example of the Shuayb people, an unjust society where social justice is violated.

**Keywords:** Justice, human rights, Shuayb people, social injustice, interreligious dialogue

---

* Azerbaijan Institute of Theology, Master's student in History of Religion; Baku, Azerbaijan (corresponding author)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
** Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**To cite this article:** Salmanova, Sh., & Malikov, A. [2024]. Social Injustice and Deception in Trade as Catalysts for Societal Collapse: A Case Study of the People of Shuaib. *“Metafizika” journal, 7(4),* pp.152-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.152-166

**Article history:**
*Received: 17.08.2024*
*Accepted: 28.10.2024*

**УДК:** 297.; 297.18.
**ББК:** 86.39; 86.31
**MJ №** 244
10.33864/2617-751X.2024.v7.i4.152-166

# Социальная Несправедливость и Весовой Обман как Причина Разрушения Обществ: на Примере Случая Племени Шуайб

**Шаргия Салманова** *
**Аладдин Маликов****

**Абстракт.** Права человека являются неотъемлемыми правами, данными всем людям со дня их рождения. Защита прав человека является предпосылкой справедливого, равного и мирного мира. Эти права мы можем найти не только в официальных государственных документах, но и в доктринах религий. Права человека являются обязанностью не только государства, но и отдельных лиц и неправительственных организаций. Нарушение этих прав может привести к обострению отношений между людьми. Когда мы смотрим на поучительные истории, данные нам религиозными текстами, мы становимся свидетелями того, что нарушение прав, лишение прав людей вызывает гнев Божий и имеет свойство быть причиной последствий, ведущих к разрушению сообществ, которые вести себя таким образом. В статье приведены примеры важности небесных религий для прав человека, справедливости и прав человека, содержащиеся в религиозных текстах, а также важность ценности этого шага в глазах Бога на примере народа Шуайб, несправедливого общества, в котором социальную справедливость нарушают, пытаются добиться.

**Ключевые слова:** Справедливость, права человека, Жители Шуайба, социальная несправедливость, межрелигиозный диалог

* Азербайджанский Институт Теологии, Магистрант по специальности «История религии»; Баку, Азербайджан (ответственный автор)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
** Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**Цитировать статью:** Салманова, Ш., & Маликов, А. [2024]. Социальная Несправедливость и Весовой Обман как Причина Разрушения Обществ: на Примере Случая Племени Шуайб. *Журнал «Metafizika», 7(4),* с.152-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.152-166

**История статьи:**
*Статья поступила в редакцию: 17.08.2024*
*Отправлена на доработку: 09.09.2024*
*Принята для печати: 28.10.2024*

**UOT:** 297.; 297.18.
**KBT:** 86.39; 86.31
**MJ №** 244
10.33864/2617-751X.2024.v7.i4.152-166

# Sosial Ədalətsizlik və Çəkidə Aldatma Toplumların Həlak Səbəbi Kimi: Şüeyb Qövmü Timsalında

**Şərqiyə Salmanova***
**Ələddin Məlikov****

**Abstrakt.** İnsan haqları bütün insanlara doğulduğu gündən etibarən verilən və vazkeçilməz haqlardır. İnsan haqlarının qorunması ədalətli, bərabərhüququlu və sülhpərvər bir dünya üçün şərtdir. Bu haqlara təkcə rəsmi dövlət sənədlərində deyil, dinlərin doktrinalarında da rast gələ bilirik. İnsan haqları təkcə dövlətin deyil, eyni zamanda fərdlərin və qeyri hökümət təşkilatlarının da məsuliyyətidir. Bu haqların pozulması, insanlar arası əlaqələrin gərginləşməsinə səbəb ola biləcək bir qüvvəyə malikdir. Dini mətnlərin bizlərə verdiyi ibrətamiz hekayələri nəzərdən keçirdikdə şahidi oluruq ki, hüquqların pozulması, insanların haqqının əlindən alınması Tanrının qəzəbinə səbəb olub, bu şəkildə rəftar edən topluluqların məhvinə qədər aparan bir nəticələrin səbəbi olma xüsusiyyəti daşıyır. Məqalədə səmavi dinlərin insan haqlarına verdiyi önəm, dini mətnlərdə yer alan ədalət və insan hüquqlarına dair örnəklər yer almış, sosial ədalətin pozulduğu bir ədalətsiz toplum olan Şüəyb qövmünün timsalında bu addımın Tanrı qatında dəyərinin önəminə diqqət çəkilməyə çalışılmışdır.

**Açar sözlər:** ədalət, insan haqları, Şüeyb qövmü, sosial ədalətsizlik, dinlərarası dialoq

* Azərbaycan İlahiyyat İnstitutunun “Dinlərin Tarixi” ixtisası üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
“AcademyGate Publishing”-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**Məqaləyə istinad:** Salmanova, Ş., & Məlikov, Ə. [2024] Sosial ədalətsizlik və çəkidə aldatma toplumların həlak səbəbi kimi: Şüeyb qövmü timsalında. *“Metafizika” jurnalı, 7*(4), səh.152-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.152-166

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 17.08.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 09.09.2024*
*Çapa qəbul edilmişdir: 28.10.2024*

## 1.Giriş

"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"

Bu şəkildə xitablarla təkcə ayələrdə bəhsi keçən qövmlərə deyil, bütün insanlığa müraciət edən Allah, hökmləri ilə insanlar arası əlaqələrdə meyarları müəyyən etmiş və toplumlar arasında mövcudluğu hədəflənən ədalət anlayışının formalaşmasında mühim rol oynayan bu ayələr cəmiyyət içindəki fərdlərin bərabərhüquqluğunu və birliyini təmin etmədə vacib mənbə rolunun sahibi olmuşdur. İdarəetmə, mühakimə kimi vacib əlaqələrin əsas prinsipi olaraq ədalət anlayışı kəlimə anlamı olaraq da müxtəlif məsələlərin həllindəki vəzifəsindən dolayı bir neçə xüsusiyyətdə yer alsa da, ümumən bərabərlik, hər kəs haqqında tarazlıq meyarları baxımından hökm vermə kimi mənaları ifadə edir.

İsfahaninin *"Müfrədat"* kitabında A-D-L عدل kökündən törədiyini gördüyümüz ədalət terminin ölçülən, sayılan obyektlər arasındaki bərabərliyin izahı olaraq, bərabər paylaşdırmaq şəklində izah olunduğunu görürük. İzahı bir hədislə diqqətimizə çatdıran müəllif *“Gökler ve yer adâletle ayakta duruyorlar”* "والأرض السماواة قامت بالعدل" hədisinin izahında aləmdəki təməllərdən birinin digərindən artıq və ya əskiy olmazı halında, aləmin tarazlığının pozulacağını qeyd edərkən, adil və ədalətli olmağın edilən işdə, qarşılıq vermədə bərabər şəkildə rəftar etmək olduğunu diqqətimizə çatdırır. [İsfahani, 2012, 680]

## 2.İslam toplumunda ədalət anlayışı nümunəsi

Universal bir din olan İslam və onun Quran vasitəsi ilə insanlığa xitabının əsasını təşkil edən fərdlər və toplumlar arası əlaqələrin ideal şəkildə olması, haqqı bərqərar edib, hər kəslə əxlaqi və hüquqi normalar çərçivəsində rəftar olunması hallarının təbliğ və həyata keçirilmə örnəyini həm ayələrdə, həm də Peyğəmbər dövründə müşahidə edirik. Həzrəti Məhəmmədin Mədinədə həyata keçirdiyi Ənsar-Mühacir qardaşlığı, Mədinə müqaviləsi kimi aktlarda nəzərimizə çatdırılan ədalətlə rəftar etmə halları ümmətə öz aralarında adil hökm vermə və rəftar etməyi aşılayır. İnsanların dini etiqadına məcburi müdaxilənin yolverilməzliyi, hər kəsin dininə hörmətlə yanaşılmasının vacibliyini vurğulayan müqavilə bəndində deyilir: Avfoğulları yəhudiləri möminlərlə birlikdə bir ümmət təşkil edər. Yəhudilərin dinləri özlərinə, möminlərin dinləri də özlərinədir. Buna mövlaları da daxildir" [TDV İslam Ansiklopedisi ll/212-215] Bu təşəbbüs hər şeydən əvvəl şəhər xalqının sülh və əmin-amanlıq içində yaşamasını təmin etmək qayəsini güdürdü. [Səmədov, 2019, 97-114] Bununla yanaşı isə insanlara bərabər hüquqlu

davranılaraq Quranın ədalət prinsipini gözlər önünə sərib, buradaki qanunların təkcə müsəlmanları deyil, hərkəsi əhatə etməsi baxımından vacib xüsusiyyət daşıyırdı.

Ədalət anlayışı Quranda ekvivalentləri ilə birgə otuza yaxın yerdə işlənmişdir. Onun bu qədər təkrar edilməsi Quranın ədalətə verdiyi önəmin açıq nişanəsidir. Quran gücün deyil, haqqın və hüququn üstün tutulduğu bir sistemi, toplumu hədəfləyir. [Ersöz, 2016, 1-26] Bu səbəbdən də Yaradan ayələrində kininiz sizi ədalətsizliyə sövq etməsin [Qurani-Kərim məalı, 2020," əl-Maidə 5/8], bir şəxsi öldürmək, bütün insanlığı öldürmüş kimidir [Qurani-Kərim məalı, 2020," əl-Maidə 5/32] şəklində bəndələrinə müraciət edir. İnsanları ədalətli olmağa çağıran ayələrdə hətta öz əleyhinə olsa belə, yenə də ədalətdən yan keçməməyə işarə edilir:

"*Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır!*" [Qurani-Kərim məalı, 2020,"ən-Nisa", 4/135]

Quranın İslam aləmi ilə birlikdə bütün insanlara yönəlmiş ətraf mühitlə davranış qaydalarına diqqət etdikdə ədalət və haqq çərçivəsində bir sıra mühim məqamların şahidi oluruq. Quranın irəli sürdüyü insan hüquqları o qədər zəngin və əhatəlidir ki, müasir İnsan Haqları müzakirəsi hələ bu nöqtəyə çatmayıb. Bu hüquqlar bunlardır: Allahın haqqı, valideyn haqqı, qocanın haqqı, cəmiyyətin haqqı, qonşunun haqqı, ekoloji(ətraf mühit) haqqı və uşaq haqqı. Quran təlimləri insanları qorumaq və bəşəriyyətin inkişafı üçün lazım olan təhlükəsiz və tərbiyəvi mühit yaratmaq məqsədi daşıyır. [Bayraklı. 2009, s.11] Günümüz insan haqları ilə Quranda mövcud olan insan haqları arasındaki analogiyalara nəzər saldıqda əsrlər əvvəl Allahın insanlara Quran vasitəsi ilə təbliğ etdiyi özünün və ətrafında mövcud olanların hüququnun qorunması üsullarının varlığı və bunun həyata keçirilməsi zamanı bərabər hüquqlu şəkildə davranılmasının şahidi oluruq.

## 3.Xristiyanlığın müqəddəs kitabında Tanrının Ədaləti anlayışı

Haqq, ədalət İslam aləminin müqəddəs kitabı Qurani-Kərim ilə yanaşı digər səmavi dinlərin müqəddəs kitablarında da əsas insani yanaşmalardan biri olaraq qarşımıza çıxır. Uca Allahın 99 gözəl adlarından biri olaraq sayılan Əl-Ədl العدل ismi, Allahın əsla zülm etmədiyi, haqq ilə hökm edib çox ədalətli olduğu mənasında istifadə edilib, ədl sifətinin onun məxluqlarına böyük nemətlər verməde ədalətli olduğunu ifadə edir. [Dini Terminlər Lüğəti,

s.2010] Digər müqəddəs kitablarda Allahın adilliyi haqqında verilən örnəklərlə insanlara və insanlığa verilən Ədalətli rəftar və qarşılıq mesajları ən Alidən ən acizə bir nəsihət verici misal xüsusiyyəti daşıyır. Xristiyanlıqda ədalət həm Tanrının bir sifətidir, həm də Tanrı-kainat və insan- kainat əlaqələrində vacib bir mövqedir. [Harman, 2023, s.20-24] Əhdi-Cədiddə Hz. İsanın ətrafındakilərə xitabən: “*Bəsdirin səthi mühakimə etdiniz, ədalətlə mühakimə edin*” şəklindəki müraciəti az əvvəl qeyd olunan insan-kainat əlaqələrinin xatırladılması üçün xəbərdarlıq xüsusiyyəti daşıyan bir ayə olması ilə xüsusi diqqət cəlb edir. Belə ki, bəndələrinin ədalətsiz və keyfi olaraq davrandığının şahidi olan Allah onları haqq yoluna dəvət etmək üçün rəsullar göndərmiş və onların təbliği ilə başda Allaha qarşı olan ədalətsiz yanaşma olan şirk, sonrasında isə insani əlaqələrin sayılmaması hallarından olan mala, cana qəsd hallarının qarşısı alınmağa çalışılmışdır.

Yeni-Əhddə Tanrının adil sifətinin Hz. İsanın Tanrıya bu şəkildə, “adil Ata” xitabında şahidi oluruq: Ey adil Ata, dünya Səni tanımır. Mən isə Səni tanıyıram və bunlar da bilirlər ki, məni Sən göndərmisən. Mən Sənin adını onlara açdım və yenə açacağam ki, mənə duyduğun məhəbbət onlarda da olsun və mən onlarla vəhdətdə olum. [Müqəddəs Kitab, Yəhyanın yazdığı müjdə 17: 25-26] Bu ayə ilə yanaşı Allahın ədalətinin bir nümunəsi olaraq Hz. İsanın qurban edilməsi hadisəsini diqqətə çatdıran bir başqa ayədə, bu hadisə ilə Allah öz ədalətini nümayiş etdirmiş, günahkarların günahını bağışlanmasına vəsilə qıldığı görülməkdədir: “*Allah Oğlunu qurban verdi ki, onun axıdılmış qanına gətirilən iman sayəsində insanları Özü ilə barışdırsın. Allah bunu Öz ədalətini nümayiş etdirmək üçün etdi, çünki Allah səbir göstərib keçmişdə işlənmiş günahları bağışlayırdı”.* [Müqəddəs Kitab, Romalılara 3:25]

Hz. İsanın Tanrının insanlara və insanlığa olan mesajlarını əksiksiz olaraq çatdıran nəbilərdən biri kimi insanlar arası əlaqələri təzimləmək və onların bir biri ilə rəftarında, hökmündə ədaləti təmin etmək adına həyata keçirdiyi ən diqqət çəkici olan addımı “Məşhur Dağüstü Vəz” xitabıdır. Xitab zamanı o, vəzi dinləyənlərə “pis adama müqavimət göstərmə, düşmənlərini sev, təkcə sizi sevənləri sevməklə kifayətlənmə, təkcə soydaşlarını salamlama, gözə göz, dişə diş davasının əvəzinə, heçkimə pislik etməyin” [Müqəddəs Kitab, Mətta 5: 38-48] deyə nəsihət edir. Bu şəkildə davranılarsa Atanızın oğulları olacaqsınız deyə onları müjdələyir. [Müqəddəs Kitab, Mətta 5:45] Buradan Tanrıya yaxın olmaq, ona sarı getmək üçün izlənəcək yolun insanlara qarşı səbirli, ədalətli və mehriban olmaqdan keçdiyinin şahidi ola bilirik. Allahın mərhəmətini qazanmaq üçün pislik əvəzinə pislik etməməyi, imkan daxilində hamı ilə sülhdə olmağı, düşmənin acdırsa onu yedizdirməyi susuzdursa ona su verməyi (yəni onu yola gətirmək üçün, yola gətirib, qəlbindəki buzu

əritmək üçün), pisliyə məğlub olmamağı, pisliyə yaxşılıqla qalib gəlməyi, sizi təqib edənlərə lənət yox, dua ilə qarşılıq verməyi [Müqəddəs Kitab, Romalılara 12: 14-21] məsləhət edən ayələr Xristian Teologiyasının insanlar-kainat, insan-Tanrı əlaqələrinin nizamını hədəfləyən başlıca qanunların nümunəsidir.

**4.Yəhudilikdə ədalət anlayışı**

Tanrıdan Adil bir hakim olaraq bəhs edən Zəbur ayələrində, yönəldikləri yalnış yoldan dönməyən insanların Ədalətli Tanrı tərəfindən qarşılıq alacaqlarının xəbəri verilərkən [Müqəddəs Kitab, Zəbur 7: 9-11] 7 Tanrının ədalətinin işığında insanların da ətrafı ilə ədalətli davranması haqqında məsləhətlərin mövcudluğu hər üç müqəddəs kitada Yaradanın qayəsinin ədalətli Dünya olduğunun nümunəsidir. Soydaşlarınızdan borcu tələb etməyin, borcu olan soydaşlarınızı borcdan azad edin, kasıblara qarşı ürəyiniz daşa dönməsin, qul kimi saxladığınız şəxsi azad etdikdə, onu əliboş yola salmayın, məhsulunuzdan səxavətlə pay verin [Müqəddəs Kitab, Qanunun təkrarı 15:7-15] kimi məsləhətlərin yer aldığı Əhdi-Ətiqdə bu əmirlərə əməl etdikdə, Onun sözünə qulaq asdıqda Tanrının onlara xeyir-bərəkət verəcəyi müjdəsi verilir.

Yəhudilikdə önəmli mövqeyə sahib olan Musanın On əmri bəndələrin həm yaradıcısı ilə, həm də bir-biriləri ilə əlaqələri baxımından xüsusi yer tutur. Qonşuların haqqında yalan yerə şahidlik etməyəcək, qonşuların və yaxınlarının mülklərinə tamah etməyəcək, öldürməyəcək, oğurluq etməyəcəksiniz [*https://web.archive.org/web/20150702083615/https://www.britannica.com/topic/Ten-Commandments*] kimi əmrlər yəhudi xalqının həyatında əsas yerə sahibdir. Ədalətli şəkildə əsvir edilən Tanrı öz surətində insanları yaratdığı üçün [Müqəddəs Kitab, Yaradılış 1:27] onun ədalət xüsusiyyəti insanlarda da özünü biruzə verməlidir. Bu səbəbdən də Tanrı müqəddəs kitablarında insanlara bu xüsusiyyətlərini xatırladaraq sosial rifah naminə insanlara ədaləti əmr etmişdir. Lakin hər üç səmavi dində verilən örnəklərə nəzər salası olsaq, bu əmrlərə tabe olmayıb, fitnə törədən, həm yaradana, həm yaradılana qarşı ədalətsizlik edən qövmlərin daima bir cəza ilə qarşılaşdığının, hətta həlaka düçar olduğunun da şahidi oluruq.

**5.Şüeyb qövmü və onların ədalətsizlik örnəkləri**

Əykə və Mədyən xalqına peyğəmbər olaraq göndərilən Hz. Şüəyb və qövmü haqqında Qurani Kərimdə səkkizə yaxın surədə məlumat verilib. Qurani Kərim ilə yanaşı Tövratda da haqqında söhbət açılan Şüəyb peyğəmbərin Hz. Musa ilə eyni dövrdə yaşaması və Musa peyğəmbərin onun qızı ilə ailə qurması haqqında məlumatların yer aldığı ayələrdən hər iki

peyğəmbərin həyatlarını ətraflı şəkildə öyrənə bilirik. Taha surəsi 39-40, əl-Qəsəs surəsi 22-ci ayələrindən Musa peyğəmbərin yolunun Şüəyb peyğəmbərin yaşadığı ərazidən rast saldıran Allahın, onun həyatına müsbət təsir edəcək hadisələr silsiləsinə başlanğıc verdiyinin şahidi oluruq. Əhdi-Ətiqin Çıxış bölümündə haqqında söz açılan Şüəyb peyğəmbər Qurani Kərimdən fərqli olaraq burada Ruil, bəzən də Yətra adı ilə qarşımıza çıxır. [Müqəddəs Kitab, Çıxış 18-1] Burada Şüəyb peyğəmbər Mədyən xalqının kahini olaraq qeyd olunur [Müqəddəs Kitab, Çıxış 2-16] və qızı Səfurəni Musa peyğəmbərlə evləndirir. [Müqəddəs Kitab, Çıxış 2-21] Tövratın müxtəlif ayələrində haqqında bəhs olunan Şüəyb peyğəmbər Musa peyğəmbərə verdiyi məsləhətlərlə ona ilk tanış olduğu çağlardaki kimi yol göstərici olmuşdur. [Müqəddəs Kitab, Çıxış 18:14-27]

Qurani Kərimdə isə Şüeyb peyğəmbərin qövmü və onların Allaha qarşı, haqqa ədalətə qarşı olan hərəkətlərinin təsviri daha geniş şəkildə yer almışdır. Yaradanın təyin etdiyi qaydalar və insan haqlarına qarşı əks mövqedə yer alan insanlar hər nə qədər onlara ali qanunları xatırladıcı göndərilsə də yenə özlərini haqlı sayıb, elçiləri, daha da irəli gedib Yaradanı inkar etmişlərdi. Əvvəlki qövmlərin də qissələrində şahidi olduğumuz kimi inkarları səbəbindən öz qövmlərindən olsa da, olmasa da gələn hər bir rəsula aşağıayıcı tərzdə baxıb, layiq olmadığı rəftarla yaxınlaşan tayfalardan biri də Şüəyb qövmü olmuş, Allah öz qardaşlarını onlara xəbərdaredici olaraq göndərmişdi:

“Mədyən qövmünə də qardaşları Şüeybi (peyğəmbər) göndərdik.” [Qurani-Kərim məalı, 2020 əl-Əraf, 7/85]

Göndərildiyi qövmün təsvirinə diqqət yetirəsi olsaq, ayələrdən belə bir nəticə çıxarmaq olur ki bu qövm ən başlıca olaraq Allaha şirk qoşub, ondan başqasına ilahıq xüsusiyyəti yaraşdıran bir qövm olaraq, onları xəbərdar edib Tək yaradıcıya ibadət etmələrini təbliğ edən peyğəmbəri də yalanlayacaq qədər təkəbbürlü bir qövm olmuşdur. Onların bu xüsusiyyətini ayələr vasitəsi ilə Quran bizə belə açıqlamışdır:

Mədyən qövmünə də qardaşları Şüeybi (peyğəmbər) göndərdik. O demişdi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Sizə Rəbbinizdən açıq-aşkar bir dəlil gəlmişdir. [Qurani-Kərim məalı, 2020 əl-Əraf, 7/85]

Mədyən qövmünün təsviri zamanı diqqəti çəkən bir məqam da, bir neçə fəqli surələrdə qövmün, ədalətsizliklərinə işarə edən ayələrdir. Ədalətsizlikləri zamanı onlar həm qarşılarındaki tərəf müqabillərindən Allaha iman edənləri haqq yoldan hədə qorxu ilə uzaqlaşdırma, qurulmuş kainat tarazlığını sarsıdacaq əməllər etmə kimi Allahın qanunlarına zidd hərəkətlərə meylləri

ilə seçilirlər və Uca Yaradan onların bu əməllərinə etirazını bildirən peyğəmbərin xəbərini bizlərə Quran ayələri ilə belə xatırladır:

وَلَا تَقْعُدُوا بِكُلِّ صِرَاطٍ تُوعِدُونَ وَتَصُدُّونَ عَنْ سَبِيلِ اللَّهِ مَنْ آمَنَ بِهِ وَتَبْغُونَهَا عِوَجًا ۚ وَاذْكُرُوا إِذْ كُنْتُمْ قَلِيلًا فَكَثَّرَكُمْ ۖ وَانْظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ.

Hər yolun başında əyləşib Allaha iman gətirənləri qorxudaraq Onun yolundan döndərməyin, onu (Allah yolunu) əymək istəməyin. (Ey Mədyən tayfası!) Xatırlayın ki, bir zaman siz çox az idiniz, amma (Allah) sizi çoxaltdı. Bir görün fitnə-fəsad törədənlərin axırı necə oldu! [Qurani-Kərim məalı, 2020. əl-Əraf, 7/86]

Qövmün rəhbərləri Şüəyb peyğəmbər və ona iman edənlərə hədə vasitəsi ilə ya onların dinini qəbul edəcəklərini, yada bölgədən sürgün olunacaqları ilə hədə qorxu gəlib, qarşılığında isə Şüəyb peyğəmbərdən inanclarına qarşı nifrət dolu cavab alırlar:

قَالَ الْمَلَأُ الَّذِينَ اسْتَكْبَرُوا مِنْ قَوْمِهِ لَنُخْرِجَنَّكَ يَا شُعَيْبُ وَالَّذِينَ آمَنُوا مَعَكَ مِنْ قَرْيَتِنَا أَوْ لَتَعُودُنَّ فِي مِلَّتِنَا ۚ قَالَ أَوَلَوْ كُنَّا كَارِهِينَ.

(Şüeyb) tayfasının (iman gətirməyi) özlərinə sığışdırmayan təkəbbürlü əyanları: “Ey Şüeyb! Ya səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!” – dedilər. (Şüeyb) belə cavab verdi: “(Dininizə) nifrət etdiyim halda beləmi (bizi bu işə məcbur edəcəksiniz)? [Qurani-Kərim məalı, 2020, əl-Əraf, 7/88]

Öz dinlərinə dəvət etdikləri Şüeyb peyğəmbərdən rədd cavabı alan tayfa əyanları xalqa basğı etməyə davam edərək onları öz “haqq” yollarına dəvət edirlər. Bunları görən Şüəyb peyğəmbər isə Allah diləməsə onların dininə dönməyəcəklərini, onların batil dinindən xilas olduqdan sonra, yenidən onlara yaxınlaşarlarsa Allaha qarşı çıxmış olacaqlarını söyləyir.

وَقَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ لَئِنِ اتَّبَعْتُمْ شُعَيْبًا إِنَّكُمْ إِذًا لَخَاسِرُونَ.

(Şüeyb) tayfasının kafir əyanları (tabeliyində olanlara) dedilər: “Əgər (dininizi atıb) Şüeybin ardınca getsəniz, şübhəsiz ki, (çox böyük) ziyana uğramış olarsınız!” [Qurani-Kərim məalı, 2020, əl-Əraf, 7/90]

قَدِ افْتَرَيْنَا عَلَى اللَّهِ كَذِبًا إِنْ عُدْنَا فِي مِلَّتِكُمْ بَعْدَ إِذْ نَجَّانَا اللَّهُ مِنْهَا ۚ وَمَا يَكُونُ لَنَا أَأَنْ نَعُودَ فِيهَا إِلَّا أَنْ يَشَاءَ اللَّهُ رَبُّنَا ۚ وَسِعَ رَبُّنَا كُلَّ شَيْءٍ عِلْمًا ۚ عَلَى اللَّهِ تَوَكَّلْنَا ۚ رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنْتَ خَيْرُ الْفَاتِحِينَ.

Allah bizi sizin (batil) dinizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, (sizin bütpərəst dininizin haqq olduğunu etiraf etməklə) Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməsə, biz əsla sizin dininizə dönə bilmərik. Rəbbimiz elm ilə (Öz əzəli elmi ilə) hər şeyi ehtiva etmişdir. Biz yalnız Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!” [Qurani-Kərim məalı, 2020, əl-Əraf, 7/89]

Tarixin hər dövründə mövcud olan və araşdırmamızın əsasını təşkil edən sosial ədalətsizliyin bir həlak səbəbi olması, bu feilin mahiyyətini, səbəb

olduğu nəticələri diqqət mərkəzinə alsaq, fərdlər arası ədalət anlayışının kainatın yaradıcısı baxımından nə qədər önəmli mövqeyə yerləşdirildiyinin şahidi olarıq. Qurani Kərim baxımından insani haqqlar, onların maddi, sosial və mənəvi hüquqlarına başqaları tərəfindən hörmətsiz şəkildə yanaşılması, həlaka səbəb olacaq bir addım kimi qəbul edilməsi bütün insanlığa xəbərdarlıq xüsusiyyəti daşıyır. Günümüzdə demək olar ki, hər an alış-veriş fəaliyyətinin tərəfi olaraq çıxış etdiyimiz bir dövrdə qarşılıqlı münasibətdə olduğumuz insanların haqq və hüquqlarını qorumaq təkcə onların layiq olduğu dəyəri vermə olaraq görülməməli, bunun qarşılığında həlaka səbəb olacaq qədər böyük bir günahdan xilas olma kimi dəyərləndirilməlidir. Ədalət və insaf sahibi insanların cəmiyyətdə daima yüksək insani keyfiyyət sahibi olaraq qiymətləndirilməsi, əxlaqi keyfiyyətlərin zirvə məqamında adları çəkilənlərdən olması isə bu dürüst yaşama şəklinin digər bir müsbət tərəfidir. Lakin ayələrdən də şahid olduğumuz qədəri ilə Şüəyb qövmü bu mövqedə qalmağa layiq hərəkətlər nümayiş etdirməyib, həm cəmiyyət həm də İlahi nəzər baxımından aşağı mərtəbələrdə məskunlaşmışdır. Quranın Şüeyb qövmünün ədalətsizliyinin təsviri timsalında bizə keyfiyyətsiz əqidə örnəklərini anlamada təsiri olmuşdur. Ayələrdə qövmün ədalətsizlik örnəkləri Şüeyb peyğəmbərin xitabları da daxil olmaqla belə təsvir edilir:

وَإِلَىٰ مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا ۗ قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ ۖ قَدْ جَاءَتْكُمْ بَيِّنَةٌ مِنْ رَبِّكُمْ ۖ فَأَوْفُوا الْكَيْلَ
وَالْمِيزَانَ وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءَهُمْ وَلَا تُفْسِدُوا فِي الْأَرْضِ بَعْدَ إِصْلَاحِهَا ۚ ذَٰلِكُمْ خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ.

Mədyən tayfasına da qardaşları Şüeybi (peyğəmbər) göndərdik. (Şüeyb) onlara belə dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil (möcüzə) gəldi. Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın. Yer üzü (peyğəmbərlərin şəriətləri sayəsində) düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu (dediklərim) sizin üçün xeyirlidir! [Qurani-Kərim məalı, 2020, əl-Əraf, 7/85]

وَإِلَىٰ مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا ۚ قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ ۖ وَلَا تَنْقُصُوا الْمِكْيَالَ وَالْمِيزَانَ ۚ إِنِّي أَرَاكُمْ
بِخَيْرٍ وَإِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ مُحِيطٍ.

Mədyən əhlinə də qardaşları Şüeybi (peyğəmbər göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi xeyir-bərəkət içində (firavan yaşamaqda) görürəm. Bununla belə (Allahın hökmlərinə riayət etməyəcəyiniz təqdirdə) sizi (hər tərəfdən) bürüyəcək bir günün əzabından qorxuram! [Qurani-Kərim məalı, 2020, Hud ,11/ 84]

İnsanı yaradarkən onu gözəl nemətlərlə şərəfləndirdiyini, təmiz, gözəl ruzilər verdiyini, [əl-İsra, 70] onu yaratdıqlarının çoxundan daha üstün yararadıb, ona gözəl surət verdiyini [ət-Tin, 4] söyləyən Yaradan, kainatın nizam qaydalarını Qurani Kərimdə sadalayaraq, üstün yaratdığı insanın bütün

haqqlarını müxtəlif ayələrdə diqqətə çatdırıb, yaş və cins fərqi qoymadan hər bir haqq sahibinə haqqının nə olduğunu izah edir. Qadın, kişi, uşaq, yetim, müsəlman, qeyri müsəlman hər bir şəxsin hüquqlarını ayəbəayə təsvir edərək insanlar arasında hökm verilərkən nələrə riayət edilməli olduğunu bəndələrinin diqqətinə çatdıran Rəbbin qul haqqları baxımından vəzifələrin nə olduğunu, bu vəzifələr yerinə yetirilməzsə qarşılıq olaraq onları gözləyən mükafat və cəza qarşılıqlarını da məlumatlardan kənar saxlamamışdır:

إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الْأَمَانَاتِ إِلَىٰ أَهْلِهَا وَإِذَا حَكَمْتُمْ بَيْنَ النَّاسِ أَنْ تَحْكُمُوا بِالْعَدْلِ ۚ إِنَّ اللَّهَ نِعِمَّا يَعِظُكُمْ بِهِ ۗ إِنَّ اللَّهَ كَانَ سَمِيعًا بَصِيرًا.

Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir! [Qurani-Kərim məalı, 2020, ən-Nisa,4/ 58]

Halal yoldan qazanılmayan bolluq içində yaşadıqlarını və bunun onlar üçün əzaba səbəb olacağından qövmünü xəbərdar edən [*https://www.kuranvemeali.com/hud-suresi*] Şüeyb peyğəmbər xalqına xitabən onları doğru yola dəvət etdiyini, Rəbbin buyruqlarını təbliğ etdiyini, Rəbbin hökmü gələnə qədər səbrli olmağa və Rəbbin hökm verənlərin ən yaxşısı olduğunu xatırlatmasına baxmayaraq əməllərində inad edənlərə xəbərdar edilən əzabın yetişməsi ilə sanki heç var olmamışlar kimi yer üzündən silinən qövm bir ibrət örnəyidir:

كَأَنْ لَمْ يَغْنَوْا فِيهَا ۗ أَلَا بُعْدًا لِمَدْيَنَ كَمَا بَعِدَتْ ثَمُودُ.

Sanki onlar heç yaşamamışdılar. Bilin ki, Mədyən tayfası da Səmud qövmü kimi (Allahın rəhmətindən) uzaq (kənar) oldu! [Qurani-Kərim məalı, 2020, Hud, 11, 95]

Onlara göndərilən peyğəmbəri divanə və yalançı adlandıran, söylədiklərindən onun ovsunlanmış insan olduğu nəticəsini çıxaran qövm peyğəmbərə əgər doğru söyləyirsə göyü üzərlərinə endirməsini söyləyirlər. Təkzibləri səbəbindən "buludlu gün"ün əzabı ilə qarşılaşan qövm, dəhşətli sarsıntının gətirdiyi əzabla olduqları yerdə üzüstü həlak oldular:

فَكَذَّبُوهُ فَأَخَذَتْهُمُ الرَّجْفَةُ فَأَصْبَحُوا فِي دَارِهِمْ جَاثِمِينَ.

Amma (mədyənlilər) onu təkzib etdilər. Buna görə də onları (dəhşətli) bir sarsıntı (zəlzələ) bürüdü. Onlar dizüstə çöküb evlərində qaldılar (hamısı həlak oldu). [Qurani-Kərim məalı, 2020, əl-Ənkəbut, 29/37]

Xətib-əl-Ənbiya olaraq adlandırlan Şüeyb peyğəmbərin qövmünə özlərindən əvvəlki şükürsüz, müşriq topluluqların vəziyyətini xəbər etməsinə baxmayaraq, qövmü bundan ibrət almayıb əksinə onlar kimi davranaraq Rəbbi inkara qədər gedən əməllərinə davam etmiş və özlərinə zülm etmişdilər. Onların və onlara qədər eyni tərzdə yaşayan qövmlərin ibrətlik

hekayələri ağıl sahiblərinin dəfələrlə oxuyub, anlaması və ibrət götürməsi üçün müxtəlif ayələrdə təkrar-təkrar qarşımıza çıxır:

أَلَمْ يَأْتِهِمْ نَبَأُ الَّذِينَ مِنْ قَبْلِهِمْ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ وَقَوْمِ إِبْرَاهِيمَ وَأَصْحَابِ مَدْيَنَ وَالْمُؤْتَفِكَاتِ ۚ أَتَتْهُمْ رُسُلُهُمْ بِالْبَيِّنَاتِ ۖ فَمَا كَانَ اللَّهُ لِيَظْلِمَهُمْ وَلَٰكِنْ كَانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ.

Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin və Mötəfikilərin (şəhərləri alt-üst olmuş Lut tayfasının) xəbəri gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar möcüzələrlə gəlmişdilər. Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər. [Qurani-Kərim məalı, 2020, ət-Tovbə, 9/70]

## 6.Günümüzdə müqəddəs kitabların insan haqqlarına verdiyi önəmin yeri

İnsanlıq tarixinin başlanğıcından etibarən dinlər cəmiyyətin əxlaqi və etik dəyərlərinin şəkillənməsində əsas rol oynayıb, ədalətin təməllərini formalaşdırmışdır. Günümüzdə dinlərin ədalət anlayışı hələ də böyük bir təsirə sahibdir. Dinlər insanların əxlaqi dəyərlərini şəkilləndirib, sosial ədalətə yön verərək insanların həyatına anlam qatır. Ədalətin bərqərar edilməsi, insan haqqlarının qorunması, yoxsulluğun azaldılması və müharibələrin qarşısının alınması kimi mövzularda dinlərin rolu danılmazdır.

Dinlər ədalətin mövcudluğu üçün fərdlərə və cəmiyyətə rəhbərlik vəzifəsini daşıyır. Fərdlərin haqlarına hörmət edilməsi, şiddətdən uzaq durulması, dürüstlük və doğruluq kimi dəyərlərin önəminin ön plana çəkilməsində insanların birlikdə çalışmasının vacibliyinin öyrədilməsində dinlər əsas pay sahibidir.

Fərqli dinlərin ədalət anlayışları arasında çeşidli ortaq nöqtələr mövcuddur. Bütün dinlər şiddətdən uzaqlaşıb, dürüstlüyün, ədalətli davranışın, mərhəmət və bağışlanmanın vacibliyini müdafiə edən baxışa sahib olub, ədalətin təməl qayəsinin cəmiyyətdə rifah və barışı təmin etmək olduğunu müdafiə edir. Bütün dinlər fərdlərin haqlarına hörmətlə yanaşılması və hər kəsin bərabərlik şəraitində yaşamağının vacibliyini vurğulayır.

Dinlərin ədalət anlayışının təməlində əxlaqi dəyərlər və etiq prinsiplər yer alır. Dinlər insanların bir birlərinə qarşı vəzifələrini təyin edərək, cəmiyyətdə ədalətli bir həyat yaşanması üçün vacib olan qayda və prinsipləri təyin edir. Bu səbəbdən də bütün dinlərin ortaq özəlliyi olaraq şəfqət, sülh, doğruluq, ədalətlilik başlıca insani davranış olaraq qiymətıəndirilir. Dinlər insanların bir birlərinə qarşı mərhəmətli rəftar etmələrini, ehtiyac sahiblərinə yardım etmələrini, hər bir fərdin haqqlarına hörmət edilməsi gərəkdiyini, hərkəsin bərabərhüquqlu şəkildə yaşamasının vacibliyini, ədalətin təmin olunması və cəmiyyətdə hüzur, sülh şəraitinin təsis edilməsi üçün sülhməramlı yolların təsis olunub, yalan və saxtakarlıqdan çəkinilməsi gərəkdiyini öyüdləyir.

Günümüzdə dinlər arası dialoq insan haqları üçün vacib platforma halına gəlmişdir. Fərqli dinlərə mənsub insanların bir araya gələrək ortaq dəyərlər üzərində yekdil nəticəyə və fikir birliyinə gəlmələri, insan haqlarının qorunması üçün əməkdaşlıq etmələri və cəmiyyətdə sülh və uyğunluğun təmin olunmasına tövhə vermələri bu birlik nəticəsində mümkün olmuşdur. Dinlər arası dialoq fərqli dini baxışları anlamaq, ortaq dəyərləri təyin etmək üçün önəmli fürsət təqdim edir. Bu dialoq, fərqli dinlərin insan haqları anlayışını zənginləşdirib və insan haqlarının universallığının vurğulanmasında mühim rol oynayır.

Dini inanclar insan haqlarına olduqca geniş miqyaslı tövhə verməkdədir. İnsanı mərkəzə alan etik və əxlaqi doktrinalar cəmiyyətdə ədalət, bərabərlik, mərhəmət və şəfqət kimi dəyərlərin mənimsənilməsinə təşviq edən faktordur. Dinlər insan haqlarının qorunması üçün içtimai şüur formalaşdırmağa, təlim proqramlarının hazırlanmasına, siyasi və sosial islahat hərəkatlarına rəhbərlik etməyə və ədalətə əsaslanan dünya yaratmaq üçün işləməyə tövhə verə bilər. Bütün bunlara nəzər saldıqda deyə bilərik ki, dinlərin insan hüquqularının ümümbəşər dəyərini təbliğ etmək üçün bir vasitə kimi istifadə edilə bilər.

**7.Nəticə**

İnsan hüquqlarına dair dini baxışların əsasını dinlərin insan mərkəzli ontologiyaları və əxlaqi təlimlər təşkil edir. Digər insanları Allahın yaratdığı kimi qiymətləndirir və onlara hörmət etməyi, hüquqlarını qorumağı və ədalətli dünya yaratmağı tövsiyə edir. Lakin hər dinin insan haqları anlayışı fərqli ola bilər. Bu fərqliliklər, mətinlərin təfsir tərzindən, tarixi və mədəni şəraitdən və sosial quruluşdan yarana bilər.

Səmavi dinlərin hər birində insan haqları həm onların dini mətnlərində, həm də dini ekol olaraq qəbul edilən şəxslərin təbliğatlarında əsas yerə sahibdir. İslamda insan haqları Quran və Məhəmməd Peyğəmbərin sünnətində qaynaq tapır. İslam hər insanın Tanrının yaratdığı və hər fərdin sevgi, sayğı görməyə layiq olduğunu vurğulayır. İnanç, etnik mənsubiyyət, cinsiyyət və sosial status fərqi olmadan hər kəsə bərabərlik və ədalət çərçivəsində rəftar edilməsi gərəkdiyini öyrədir. Bu prinsiplər zülmdən qorunma, ifadə azadlığı, ədalətli mühakimə haqqı, mülkiyyət haqqı və ibadət azadlığı kimi təməl insan hüquqlarını ehtiva edir. İslam insanın heysiyyətini qorumanın və cəmiyyətdə sülh və uyğunluğun yaradılmasının vacibliyini vurğulayır. Məhəmməd Peyğəmbərin Vida Xütbəsi bütün bunların əks olunduğu bir nümunə örnəyidir ki, bütün ümmətə tövsiyyə və vəsiyyət xarakteri daşıyaraq cəmiyyətdəki nizamın təminində vacib rola malik ola bilən feillərin cəmini özündə ehtiva edir.

Xristianlıqda insan haqları İncilin təlimlərindən qaynaqlanır. Xristianlıq vurğulayır ki, bütün insanlar Allahın övladlarıdır və Allahın sevgisi və

mərhəməti hamıya bərabər şəkildə yayılmalıdır. Müqəddəs Kitab sevgi, mərhəmət, bağışlanma, əməkdaşlıq və azadlıq kimi dəyərlərə böyük əhəmiyyət verir. Bu dəyərlər insan hüquqlarının əsasını təşkil edir. Xristianlıq inanır ki, insanlar insan olduqları üçün hörmət olunmaq hüququna malikdirlər və hər kəs eyni ləyaqətə layiqdir. Bu prinsiplər xristianlıqda sosial ədalətə, bərabərliyə və sülhə nail olmaq üçün mühüm bələdçi rolunu onayır.

Yəhudilikdə insan hüquqları Tövratın təlimlərinə əsaslanır. Yəhudilik Tanrının insanları yaratdığını,onlara azadlıq, ədalət və mərhəmət kimi dəyərləri öyrətdiyini vurğulayır. Tövrat insan hüquqları ilə bağlı bir çox prinsipləri təklif edir. Bunlara kasıblara kömək etmək, yadlara mərhəmət göstərmək, ədalətli davranmaq, hər kəsə hörmət etmək kimi prinsiplər daxildir. Yəhudilik insanın öz yaradıcısı qarşısında məsuliyyət daşımasını və bu məsliyyətin onun digər insanlara qarşı davranışına da təsir etməli olduğunu müdafiə edir. Bu prinsiplər sosial ədalətin bərabərliyin və sülhün təmin olunmasında mühüm rol oynayır.

Nəticə olaraq qeyd edə bilərik ki, insan hüquqlarının dini təməlləri fərqli mədəniyyətlərdəki ortaq dəyərləri əks etdirir. Dinlərin insan hüquqlarına dair baxışları fərdlərə və cəmiyyətlərə ədalətli və azad yaşamağa imkan verəcək etik çərçivə təmin edir. Dinlər insan hüquqlarının qorunması və müdafiəsi üçün bir mənbədir və müxtəlif inanc sistemləri arasında anlaşma və əməkdaşlığın təşviqində mühüm rola malikdir.

## ƏDƏBİYYAT

**1.** Səmədov, V. (2019). İslamda sosial bütünləşmə konsepsiyası: Mədinə müqaviləsi nümunəsi. *Din Araşdırmaları Jurnalı*, 2(2), 97-114. https://doi.org/10.30546/80p53k82
**2.** Bible.is. (n.d.). Retrieved from https://www.live.bible.is
**3.** eBible. (n.d.). Retrieved from https://www.ebible.org
**4.** Kur’an ve Meali. (n.d.). Retrieved from https://www.kuranvemeali.com
**5.** Ersöz, R. (2016). Kur’ân’a göre “Hakk” ve “Adalet” kavramları bağlamında İslâm toplumunun ictimâî değerleri. *Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Dergisi*, 18(2), 1-27.
**6.** Bakı İslam Universiteti. (2010). *Dini terminlər lüğəti*. Bakı: İpək Yolu Nəşriyyatı, səh 88.
**7.** Harman, Ö. F. (2023, Şubat). Yahudilik ve Hristiyanlık’ta adalet. *Dini Hayat*, 20-24.
**8.** Bayraklı, B. (2009). Temel haklar. In *İnsan Hakları ve Din Sempozyumu*, Çanakkale Onsekiz Mart Üniversitesi Yayınları (No. 105), p. 11.
**9.** Məmmədəliyev, V., & Bünyadov, Z. (Trans.). (2020). *Qurani-Kərim Məali*. Bakı: N Print Studiyası.

**10.** el-İsfahani, R. (2012). *Müfredat: Kuran kavramları sözlüğü*. İstanbul: Çıra Yayınları, 1216 p.
**11.** JW.org. (n.d.). Retrieved from https://www.jw.org
**12.** Web Archive. (n.d.). Retrieved from https://www.web.archive.org
**13.** Hristiyanlık'ta adalet. (2023, Şubat). *Dini Hayat*, 20-24.

## REFERENCES

**1.** Samadov, V. (2019). Concept of Social Integration in Islam: The Case of the Medina Charter. *Journal of Religious Studies*, 2(2), 97-114. https://doi.org/10.30546/80p53k82. (in Azerbaijani)
**2.** Bible.is. (n.d.). Retrieved from https://www.live.bible.is. (in English)
**3.** eBible. (n.d.). Retrieved from https://www.ebible.org. (in English)
**4.** *The Quran and Its Interpretation.* (n.d.). Retrieved from https://www.kuranvemeali.com. (in Turkish)
**5.** Ersoz, R. (2016). The Concepts of "Truth" and "Justice" in the Qur'an: Social Values in the Islamic Community. *Afyon Kocatepe University Journal of Social Sciences*, 18(2), 1-27. (in Turkish)
**6.** Baku Islamic University. (2010). *Glossary of Religious Terms*. Baku: Ipek Yolu Publishing, 88 p. (in Azerbaijani)
**7.** Harman, O. F. (2023, February). Justice in Judaism and Christianity. *Religious Life*, 20-24. (in Turkish)
**8.** Bayrakli, B. (2009). Fundamental Rights. In *Symposium on Human Rights and Religion*, Chanakkale Onsekiz Mart University Publications (No. 105), 11 p. (in Turkish)
**9.** Mammadaliyev, V., & Bunyadov, Z. (Trans.). (2020). *Interpretation of the Qur'an*. Baku: N Print Studio. (in Azerbaijani)
**10.** al-Isfahani, R. (2012). *Mufradat: Dictionary of Qur'anic Concepts*. Istanbul: Chira Publications, 1216 p. (in Turkish)
**11.** JW.org. (n.d.). Retrieved from https://www.jw.org. (in Multiple languages)
**12.** Web Archive. (n.d.). Retrieved from https://www.web.archive.org. (in Multiple languages)
**13.** *Justice in Christianity*. (2023, February). *Religious Life*, 20-24. (in Turkish)